# Dünyanı ədalətlə dolduracaq, zülmün kökünü kəsəcək - 24 /Feb/ 2024

Müsəlmanların nəzərində “vəd olunmuş” Mehdi (Mütəal Allah onun fərəcini tezləşdirsin və ruhumuz ona fəda olsun) bu xüsusiyyətə malikdir: “Allah zülm və sitəm ilə dolan Yer üzünü onun vasitəsilə ədalətlə dolduracaqdır”. Ədalət, cəmiyyətdə ədaləti bərqərar etmək və Yer üzündə zülmü aradan aparmaq, vəd olunmuş Mehdinin xüsusiyyətidir… Bəşər Mehdinin müqəddəs varlığının (salavat və salam olsun ona, Mütəal Allah onun şərafətli fərəcini tezləşdirsin) təzahür etdiyi hədəfə doğru hərəkət edir. O, mütəvatir hədislərə istinadən, dünyanı ədalətlə dolduracaq və zülmün kökünü kəsəcək şəxsdir.
İslam İnqilabının Rəhbəri
13/Mar/1990